# AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANLARI



**Məmmədov Seymur Qəhrəman oğlu**

18 sentyabr 1971-ci ildə Füzuli şəhərində anadan olub. 1988-ci ildə buradakı 2 nömrəli orta məktəbi bitirib. Elə həmin il Azərbaycan Politexnik İnstitutunun (indiki Azərbaycan Texniki Universiteti) elektrotexnika fakültəsinə daxil olub. Təhsil almaqla yanaşı Füzuli şəhər rabitə şöbəsində işləyib.

1991-ci ildə hərbi xidmətə çağırılıb. Vladimir vilayətinin Kovrov şəhərində artilleriya üzrə 6 aylıq kurs keçərək oradan Almaniyaya göndərilib. Sonra Ukrayna Respublikasının Çerniqov şəhərində xidmətini davam etdirib. Hərbi xidmətdən qayıtdıqdan sonra könüllü olaraq özünümüdafiə batalyonuna yazılıb.

Ermənilər tərəfindən işğal edilmiş kəndlərdə əsir götürülmüş onlarla azərbaycanlının azad edilməsində, 11 nəfər əsgərin mühasirədən çıxarılmasında və bir neçə kəndin erməni işğalçılarından təmizlənməsində igidlik göstərib.

1 aprel 1992-ci ildə Məlikcan kəndi uğrunda gedən döyüşlərdə hər birində 10 nəfərə yaxın erməni yaraqlısı olan 15 postun darmadağın edilməsində fərqlənib və bu qeyri-bərabər döyüşdə düşmən snayperinin gülləsinə tuş gəlib.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 11 avqust 1992-ci il tarixli 131 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.

Oxuduğu məktəb onun adını daşıyır.



**Məmmədov Səfərəli Qurban oğlu**

16 oktyabr 1963-cü ildə Masallı rayonunun Sərçuvar kəndində anadan olub. 1981-ci ildə orta məktəbi bitirib. Həmin il hərbi xidmətə çağırılıb. 1983-cü ildə ordudan tərxis olunub və Krasnodar şəhərinə gedərək milis sistemində işə düzəlib. 1988-ci ildə Bakı Xüsusi Orta Milis Məktəbinin (indiki Polis Akademiyası) qiyabi şöbəsinə daxil olub. 1990-cı ildə həmin məktəbi bitirib, xidmətini davam etdirmək üçün Vətənə qayıdıb. Ona Bakı Aeroportunda işləməyi təklif etsələr də inadla Qarabağın ən qaynar döyüş nöqtələrinə göndərilməsini təkid edib. Ağdam RDİŞ-də post-patrul xidmətində vzvod komandiri təyin olunub. Fərruxda, Ağbulaq fermasında, Qarakənddə neçə-neçə ermənini girov götürüb.

1992-ci il fevralın 16-da son döyüşü olub. Azğınlaşmış ermənilər Xocavənd rayonunun Qaradağlı kəndində görünməmiş vəhşiliklər törədəndə, başçılıq etdiyi dəstə düşmənə sarsıdıcı zərbələr endirib. İdarə etdiyi zirehli maşın qumbaraatanla vurulub. Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Masallı rayonunun Sərçuvar kəndində dəfn edilib.

Masallı şəhərindəki küçələrdən biri və vaxtilə təhsil aldığı Sərçuvar kənd orta məktəbi onun adını daşıyır.



**Mansurov Bəhruz Qəhrəman oğlu**

13 mart 1975-ci ildə Yardımlı rayonunun Telavar kəndində anadan olub. Orta təhsilini doğma kəndində alıb. Arzusu ədəbiyyatçı olmaq olsa da torpaqlarımızın işğalı, soydaşlarımızın öz yurd-yuvalarından didərgin salınması onu fikrindən daşındırıb. Sənədlərini Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinə verib və sərhəd qoşunları fakültəsinə daxil olub.

1995-ci il martın 16-da ölkədə hakimiyyətə qarşı çıxıb dövlət çevrilişi etmək istəyənlərin qarşısının alınması üçün ayağa qaldırılan Milli Ordumuzun əzgərləri və hərbi məktəbin kursantları tərkibində o da olub. Suverenliyimizə zərbə vurmaq istəyən silahlı dəstəni zərərsizləşdirmək üçün həyata keçirilən əməliyyat zamanı ağır yaralanıb, çoxlu qan itirdiyindən onu xilas etmək mümkün olmayıb.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Yardımlı rayonunun Telavar kəndində dəfn edilib.

Oxuduğu orta məktəb onun adını daşıyır.



**Mirabov Rəşad Akif oğlu**

3 may 1975-ci ildə Mingəçevir şəhərində anadan olub. Mingəçevir şəhər 7 nömrəli orta məktəbin doqquzuncu sinfini bitirib. Axşam məktəbində oxuya-oxuya Mərziyə Davudova adına Mingəçevir Dövlət Dram Teatrında işləyib. 12 may 1993-cü ildə Milli Orduya çağırılıb. Əvvəlcə Nasosnıda (indiki H.Z.Tağıyev qəsəbəsi), sonra isə Səngəçalda və Şubanıda hərbi təlim keçib, xüsusi təyinatlı hissədə kəşfiyyatçı-minaaxtaran peşəsinə yiyələnib.

Xidmət etdiyi hərbi hissə 1994-cü ilin yanvarında Tərtər bölgəsinə, oradan isə Füzuliyə göndərilib. Burada bir neçə əməliyyatda iştirak edib. Sonra yenidən Tərtərə qayıdıb. Cəbhədə atəşkəs elan olunduqdan sonra Bakıya - əvvəllər xidmət etdiyi hissəyə dönüb. 1995-ci ilin 17 mart hadisələri zamanı vətəndaşlıq borcunu yerinə yetirərək qiyamçılara qarşı aparılan əməliyyatda qəhrəmancasına həlak olub.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Mingəçevir şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib.

Təhsil aldığı 7 nömrəli orta məktəbə onun adı verilib. Orada və Şəhidlər muzeyində büstü qoyulub.



**Mirzəyev Kərəm Ərşad oğlu**

20 may 1960-cı ildə Qubadlı rayonunun Xanlıq kəndində anadan olub. 1977-ci ildə orta məktəbi bitirərək yol istismar idarəsində fəhlə işləyib.

1983-cü ildə Azərbaycan Dövlət İnşaat Mühəndisləri İnstitutunun su qurğuları tikinti mühəndisi fakültəsini bitirib.

1983-1985-ci illərdə hərbi xidmətdə olub. Ordudan tərxis edildikdən sonra 1990-cı ilə qədər 21 nömrəli tikinti idarəsində müxtəlif vəzifələrdə çalışıb. 1990-cı ildə Qubadlı Rayon Polis Şöbəsində sahə müvəkkili kimi işə başlayıb. Arzusu nəzərə alınaraq Daxili İşlər Nazirliyi tərəfindən Kalininqrad Ali Hüquq Akademiyasına göndərilib.

Erməni basqınlarının başlandığı ilk günlərdən rayonun Novlu, Seytas, Yuxarı və Aşağı Cibikli, Əyin, Əliquluuşağı və başqa sərhəd kəndlərində gedən əməliyyatlarda fəal iştirak edib. 1991-ci ildə Gorus rayonunun Şurnuxu kəndində yerləşən beş strateji postun sıradan çıxmasında, "Laləzar" əməliyyatında böyük xidmətləri olub.

1992-ci il oktyabrın əvvəlində Laçın rayonunun Mazutlu kəndi uğrunda gedən döyüşdə qəhrəmancasına həlak olub.

Evli idi. Bir oğlu qalıb.

Azərbaycan Respublikası Prezidentinin 11 may 1993-cü il tarixli 599 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Qubadlı rayon Xanlıq kəndində dəfn edilib.

Xanlıq kənd orta məktəbi onun adını daşıyır. Hazırda bu məktəb Sumqayıt şəhərində fəaliyyət göstərir.



**Mirzəyev Şirin Vəli oğlu**

5 yanvar 1947-ci ildə Xankəndi şəhərində anadan olub. Burada Nizami Gəncəvi adına 4 nömrəli orta məktəbi bitirdikdən sonra ordu sıralarına çağırılıb. Bakıda yerləşən Daxili Qoşunlar alayında xidmət keçib. 1967-ci ildə Sankt-Peterburq şəhərində Ali Siyasi-Hərbi Məktəbə daxil olub. 1971-ci ildə təhsilini başa çatdıraraq, təyinatla İrəvana göndərilib. Beş il burada xidmət etdikdən sonra işi Bakıya dəyişilib. Daxili Qoşunlar alayında 15 illik xidmət yolu keçib. 1988-ci ildə Moskva Ali Siyasi Akademiyasını bitirib.

Qarabağ hadisələri başlayanda raport yazaraq döyüş bölgəsinə göndərilməsini xahiş edib. 9 oktyabr 1991-ci il tarixdə Ağdam rayon ərazi özünümüdafiə taboruna komandir təyin edilib.

1992-ci il iyunun əvvəllərində komandanlıq tərəfindən böyük bir hərbi əməliyyat planı hazırlanıb. Qoşun hissələri eyni vaxtda 3 istiqamətdən hücuma keçib, düşməni geri oturtmalı idi. Onun dəstəsi Xaçınçay boyunca irəliləyir, ilk həmlə ilə Qazançı, iyunun 12-də isə Sırxavənd kəndlərini nəzarət altına alır.

1992-ci il iyunun 18-də onun olduğu maşın düşmənin basdırdığı minaya düşür. Canından əziz bildiyi Ağdam torpağında gözlərini əbədi yumur.

Ailəli idi. İki övladı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 203 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.

Bakının Nizami rayonunda adına küçə var. Xidmət etdiyi hərbi hissənin həyətində abidəsi qoyulub.



**Mirzəyev Yusif Vəli oğlu**

1958-ci il mayın 23-də Babək rayonunun Böyükdüz kəndində anadan olub. 1975-ci ildə İ.Səfərli adına Naxçıvan Rabitə Qovşağında əmək fəaliyyətinə başlayıb. İşləyə-işləyə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunda (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) ali təhsil alıb. Ali təhsilini başa vurandan sonra Bakıdakı bankların birində müfəttiş vəzifəsinə təyin edilib.

1988-ci ildə xalq hərəkatına qoşulub.

1991-ci ilin sonlarında könüllü olaraq cəbhə bölgəsinə yollanıb. İlk döyüşü Ağdərə - Goranboy istiqamətində olub. Xidmət etdiyi briqadanın fəal döyüşçülərindən olduğu üçün komandanlıq onu briqada komandirinin təchizat üzrə müavini təyin edib.

14 nəfərlik dəstə ilə döyüş əməliyyatlarında iştirak edib, Ağdərədə 17 kəndin alınmasında müstəsna xidmətləri olub.

1993-cü il fevralın 19-da Ağdərədə gedən qeyri-bərabər döyüşlərin birində silah yoldaşlarını mühasirədən çıxararkən qəhrəmancasına həlak olub.

Ailəli idi. Bir qızı var.

Azərbaycan Respublikası Prezidentinin 27 mart 1993-cü il tarixli 495 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Naxçıvan şəhər Şəhidlər xiyabanında dəfn edilib. Şəhərdəki təhsil ocaqlarından birinə və Bakının Nəsimi rayonundakı 44 nömrəli tam orta məktəbə adı verilib. Məktəbin qarşısında büstü qoyulub.



**Muradov Hikmət Oqtay oğlu**

23 yanvar 1969-cu ildə Bakı şəhərində anadan olub. 1986-cı ildə 190 nömrəli orta məktəbi bitirib. Həmin il Krasnokutsk Mülki Aviasiya Məktəbinə daxil olub, 1991-ci ildə oranı fərqlənmə diplomu ilə bitirərək Kiyev Ali Mülki Aviasiya İnstitutunun qiyabi şöbəsinə daxil olub. Təyinatla Yevlax hava yollarında 2-ci pilot kimi fəaliyyətə başlayıb.

AN-2 təyyarəsi ilə dəfələrlə Dağlıq Qarabağa uçuşlar edib. Xocalıya aviasiya hissələrinin daşınmasında və müxtəlif ləvazimatların vaxtında çatdırılmasında böyük xidmətlər göstərib.

1991-ci ilin 29 oktyabrında xüsusi tapşırıqla xidməti borcunu yerinə yetirərkən Xocalı rayonunun Xanabad kəndi ərazisində idarə etdiyi AN-2 təyyarəsi şiddətli raket atəşi nəticəsində zədələnir. Ekipajı və sərnişinləri xilas etmək üçün təyyarəni təhlükəsiz yerə çatdırmağa çalışsa da buna müvəffəq olmur, şəhid olur.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 25 noyabr 1992-ci il tarixli 337 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.

Vaxtilə oxuduğu 190 nömrəli tam orta məktəbdə barelyefi vurulub.



**Muradov Ruslan Həmid oğlu**

27 iyun 1973-cü ildə Mingəçevir şəhərində anadan olub. 1990-cı ildə şəhər 10 nömrəli orta məktəbi bitirib. Mingəçevir Texniki Rezin Məmulatı Zavodunda işə düzəlib. 1992-ci ilin 22 yanvarında Milli Ordu sıralarına daxil olub. Bir neçə ay hazırlıq keçib. 1992-ci il aprelin 14-də Ağdamın Papravənd kəndinə göndərilib. Xidmət etdiyi bölmə yerli özünümüdafiə batalyonunun əsgərləri ilə bir sıra uğurlu əməliyyatlar keçirib. Əməliyyatlarda bir kəşfiyyatçı kimi böyük zəhməti olub.

1992-ci ilin avqustunda düşmənin işğal etdiyi ərazidə Azərbaycan silahlı qüvvələrinə məxsus təyyarə vurulanda təyyarəçini xilas etmək üçün keçirilən əməliyyatlarda iştirak edib. Pusquya düşsələr də ağır döyüşlər nəticəsində mühasirəni yara biliblər.

1992-ci il avqustun 22-də Ağdam rayonunun Gulyataq kəndinin azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olub.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Mingəçevir şəhərində Şəhidlər xiyabanında dəfn edilib. Vaxtilə oxuduğu orta məktəb indi onun adını daşıyır. Məktəbdə büstü qoyulub.



**Murtuzəliyev Sergey Murtuzəli oğlu**

1963-cü il noyabrın 17-də Bakının Pirallahı qəsəbəsində anadan olub. Orta təhsilini bitirib təyyarəçilər məktəbinə daxil olub. Buranı müvəffəqiyyətlə başa vurduqdan sonra təhsilini Yeysk Ali Hərbi Aviasiya Məktəbində davam etdirib.

Bir müddət Rusiyada işləyib. Sonra Kürdəmirə gələrək, hərbi aviasiya alayında xidmət etməyə başlayıb. Polkovnik-leytenant rütbəsinədək yüksəlib.

Qarabağa ilk uçuş edənlərdən biri olub.

Təyyarəsi erməni yaraqlıları tərəfindən iki dəfə vurulsa da təyyarəni məharətlə yerə endirib, özü də salamat qalıb. Dəfələrlə Qarabağa uçuşlar edib, əhalinin təhlükəsiz yerə çıxarılmasında böyük rəşadət göstərib.

Xidmət etdiyi hissədə böyük hörmət qazanıb. Düşmənə vurduğu zərbələr nəticəsində qəhrəman kimi adı tanınaraq əfsanəyə çevrilib. 30 avqust 1993-cü ildə təlim uçuşu zamanı qəzaya uğrayıb.

Evli idi. İki qızı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 202 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Dərbənd şəhərinin Darğuş kəndində dəfn edilib.

Kürdəmir hərbi aviasiya alayında büstü qoyulub.

*Məlumatların hazırlanmasında "Heydər Əliyev və Azərbaycanın milli qəhrəmanları. Müqəddəs amal" kitabından istifadə olunub.*